**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCAN RESPUBLİKASINDA AQRAR SIĞORTA BAZARININ TƏNZİMLƏNMƏSİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

İxtisas: 5312.01- "Sahə iqtisadiyyatı"

Elm sahəsi: 53- İqtisad elmləri

**İddiaçı: Cəfər Firdovsi oğlu Cəfərov**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2024**

Dissertasiya işi Azərbaycan Dövlət Aqrar Universitetinin “Maliyyə və iqtisadi nəzəriyyə” kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: iqtisad elmləri doktoru, professor
**Məhərrəm Cəlal oğlu Hüseynov**

Rəsmi opponentlər: iqtisad elmləri doktoru, professor
**Nizami Cəlal oğlu Qafarov**

iqtisad üzrə fəlsəfə doktoru, dosent
**Eldar Əli oğlu Quliyev**

iqtisad üzrə fəlsəfə doktoru, dosent
**Camal Cəlil oğlu Hacıyev**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən ED 1.10 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: iqtisad elmləri doktoru, professor
**Nazim Müzəffərli (İmanov)**

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutu

Dissertasiya şurasının elmi katibi: iqtisad elmləri namizədi, dosent
**Sevda Məmməd qızı Seyidova**

Elmi seminarın sədri: iqtisad elmləri doktoru, professor
**Tərbiz Nəsib oğlu Əliyev**

# TƏDQIQATIN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Aqrar risklər ilk növbədə kənd təsərrüfatı məhsul istehsalçılarının itkilərinin baş verməsinin və gəlirlərinin qeyri sabitliyinin əsas səbəbidir. Təkcə onu demək kifayətdir ki, katastrofik xarakter daşıyan təbii hadisələrin təsiri nəticəsində dünya kənd təsərrüfatı məhsul istehsalının 26%-i itki ilə üzləşir[1].

Fermerlərin itkilərinin minimallaşdırılması və gəlirlərinin sabitləşdirilməsinin həlledici vasitələrindən biri dövlət tərəfindən aqrar risklərin effektiv idarəedilməsidir. Digər tərəfdən ölkəmizdə iqtisadi siyasət çərçivəsində aparılan qeyri-neft sektorunun, o cümlədən aqrar sahənin inkişafının prioritet xarakter daşıması aqrar sığorta bazarının təkmilləşdirilməsinin aktuallığını artırır.

Eyni zamanda, işğaldan azad olunmuş torpaqların kənd təsərrüfatı məhsul istehsalı dövriyyəsinə qaytarılması kənd təsərrüfatı məhsul istehsalının artımında böyük potensiallar yaradır. Bu potensialın reallaşmasının vasitələrindən biri də Böyük Qayıdış nəticəsində həmin bölgələrdə təsərrüfat subyektlərinin sayının artmasıdır[2]. Azad olunmuş torpaqlarda yaradılan yeni təsərrüfatların həmin bölgələrdə mövcud olan təbii hadisələrin müdafiəsində aqrar sığorta bazarının rolu danılmazdır. Bu baxımdan, ölkəmizdə qəbul olunan Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası və Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər çərçivəsində aqrar sahədə sığorta bazarının inkişafı əsas istiqamətlərdən biri kimi göstərilmişdir.

Aqrar sığorta bazarının tənzimlənməsi və təkmilləşdirilməsi istiqamətləri üzrə tədqiqatların kompleks formada aparılmaması problemin aktuallığını əhəmiyyətli dərəcədə artırır. Bu da, mövzunun belə istiqamətdə seçilməsinin əsas şərtlərindən biridir.

Aqrar risklərin idarə edilməsinin mahiyyəti barədə çox saylı

---

[1] Баева, Ю.В. Совершенствование аграрного страхования как фактора устойчивого развития сельского хозяйства: / диссертация на соискание ученой степени кандидата экономических наук / - Москва, 2022. - 190 с.

[2] Quliyev, E. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının Azərbaycanın davamlı inkişafında rolu / E. Quliyev. – Bakı: Kooperasiya nəşriyyatı, - 2023. - 320 səhifə.

tədqiqatlar həm yerli, həm də xarici alimlər tərəfindən aparılmış və hazırda da diqqət mərkəzindədir. Aqrar sığorta ilə bağlı tədqiqatlar ümumi sığorta bazarının tərkib hissəsi kimi yerli alimlər Z.Ə.Səmədzadə, N.N.Xudiyev, B.A.Xankişiyev, E.R.İbrahimov, İ.M.Abbasov, B.X.Ataşov, M.C.Hüseynov, S.M.Məmmədov, E.Ə.Quliyev, E.A.Salahov, P.N.Abdullayev tərəfindən müxtəlif araşdırmalar çərçivəsində aparılmışdır.

Aqrar risklərin səciyyəvi xüsusiyyətləri, təsnifləşdirilməsi, idarəedilməsi və aqrar sığorta bazarının təkmilləşdirilməsi ilə bağlı məsələlər B.Engürülü, M.Ünal, D.Acemoğlu, Ş.Özveren, P.Sulevski, K.Gajevske, D.Blandford, S.Muştag, J.Harvud, A.Jirova, K.Batirovna, Z.Axmadiyeva və s. alimlərin tədqiqatlarında öz əksini tapmışdır.

**Tədqiqatın obyekti** kimi Azərbaycanın aqrar sığorta bazarı müəyyən edilmişdir.

**Tədqiqatın predmeti** isə kənd təsərrüfatının dayanıqlı inkişafının təmin edilməsində xüsusi rolu olan aqrar sığorta bazarının tənzimlənməsi və sığorta münasibətlərinin təkmilləşdirilməsi məsələləri təşkil edir.

**Tədqiqatın məqsədi və vəzifələri:** Tədqiqatın məqsədi aqrar risklərin effektiv idarəedilməsində aqrar sığortanın rolunun artırılması və onun tənzimlənməsinin təkmilləşdirilməsi istiqamətində nəzəri və praktiki əhəmiyyətli tövsiyyələr hazırlamaqdır. Bu məqsədə çatmaq üçün qarşıya aşağıdakı vəzifələr qoyulmuşdur:

- risklər nəzəriyyəsi çərçivəsində aqrar risklərin mahiyyətinin, səciyyəvi xüsusiyyətlərinin və təsnifləşdirilməsinin sistemli şəkildə araşdırılması;
- aqrar sığorta bazarının tənzimlənməsinin təkmilləşdirilməsi mahiyyətinin nəzəri cəhətdən əsaslandırılması;
- Azərbaycanda aqrar sığorta bazarının yaranma mərhələlərinin, onlar arasında fərqin və səciyyəvi xüsusiyyətlərinin qiymətləndirilməsi;
- təminata götürülmüş risklərin ərazi-coğrafi, iqlim şəraiti, baş vermə tezliyi və intensivliyi baxımından dinamikasının təhlili əsasında qanunauyğunluqlarının müəyyənləşdirilməsi;
- sığortalanmayan fermerlərin sığorta zərfində təminata götürülmüş risklərə ərazi-coğrafi baxımından münasibətinin və sığorta müqavilələrinin bağlanmasına təsir edən amillərin araşdırılması;

- aqrar sığorta bazarının beynəlxalq təcrübəsinin araşdırılması əsasında onun müasir modellərinin və inkişaf meylliliyinin aşkarlanması;

- aqrar sığorta bazarının tənzimlənməsinin təkmilləşdirilməsi istiqamətlərinin müəyyən edilməsi və onun inkişafına maneə olan amillərin araşdırılması;

- aqrar sığorta bazarının şaxələndirilməsində indeksli sığorta modelinin rolunun müəyyənləşdirilməsi.

**Tədqiqat metodları.** Dissertasiya işinin yerinə yetirilməsində ümumi nəzəri metodlardan (analiz, sintez, məntiqi, təsnifləşdirmə və s.), emprik metodlardan, o cümlədən, statistik materialların toplanması, emalı və sistemləşdirilməsi aparılmış, qrafik və cədvəl metodlarından istifadə edilmişdir. Statistik məlumatların dinamik təhlili üfüqi və şaquli metodlardan istifadə edilərək aparılmışdır. Aqrar sığorta bazarında mövcud reallığı araşdırmaq üçün anket sorğuları tərtib edilmişdir. Anket sorğularının emalı zamanı nəticələrdəki xəta və kənarlaşmaları minimuma endirmək üçün SPSS statistik proqramından istifadə edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Müdafiəyə təqdim olunan əsas müddəalar aşağıdakılarla xarakterizə olunur:

- aqrar risklərin effektiv idarəedilməsi ilə onların mənbəyinə və əhatə dairəsinə görə təsnifləşdirilməsi arasında qarşılıqlı əlaqə vardır;

- aqrar sığorta bazarının həddindən artıq tənzimlənməsi sığorta bazarında antiseleksiya və mənəvi risklərin yaranmasına şərait yarada bilər;

- aqrar sığorta bazarının ilkin mərhələsində bitkiçilik və heyvandarlıq məhsullarının sığortalanmasında disproporsiyanın yaranması onun uğursuzluğu ilə nəticələnmişdir;

- aqrar risklərin ərazi-coğrafi, iqlim şəraiti və baş vermə tezliyi ilə sığorta müqavilələrinin bağlanması arasında asılılıq vardır;

- anket sorğusundan əldə olunan məlumatların SPSS proqramında təhlili əsasında fermerlərin risklərə münasibəti ilə ona təsir edən amillər arasında korrelyasiya müəyyənləşdirilmişdir;

- beynəlxalq aqrar sığorta modellərinin təcrübəsinin üstünlükləri və çatışmazlıqlarının öyrənilməsi Azərbaycanda tətbiq olunan aqrar sığorta modelinin təkmilləşdirilməsinə təsir edir;

- aqrar sığorta bazarının tənzimlənməsinin təkmilləşdirilməsinə maneə olan amillərin aradan qaldırılması üçün irəli sürülən təkliflərin tətbiqi sahənin inkişafına müsbət təsir göstərə bilər;
- ənənəvi sığorta modelinin alternativi olan indeksli sığorta modelinin tətbiqi aqrar sığorta bazarının şaxələndirilməsində mühim rol oynayır.

**Tədqiqatın elmi yeniliyi** aşağıdakılardan ibarətdir:

- aqrar risklərin təsnifləşdirilməsi yaranma mənbəyinə görə endogen və ekzogen xarakterli olması fikri irəli sürülmüş və elmi cəhətdən əsaslandırılmışdır;
- kənd təsərrüfatında kommersiya risklərinin yaranması məhsuldarlıq paradoksu ilə əlaqələndirilmiş və digər sahələrdə yaranan kommersiya risklərindən fərqi əsaslandırılmışdır;
- biznes və aqrar riskləri bir termində birləşdirərək aqrobiznes riskləri termini ilə ifadə edilməsi ideyası irəli sürülərək nəzəri cəhətdən əsaslandırılmışdır;
- aqrar sığorta bazarının tənzimlənməsinin təkmilləşdirilməsinin nəzəri əsası kimi risklərin optimal qarşılanması (antiseleksiya və mənəvi riskləri stimullaşdırmadan kütləviliyin təmin olunması) ideyası irəli sürülmüşdür;
- Azərbaycanda aqrar sığorta bazarının mövcud vəziyyəti qiymətləndirilərək formalaşması iki mərhələyə bölünmüş və onların fərqli cəhətləri tərəfimizdən əsaslandırılmışdır;
- Azərbaycanda baş verən təbii risklərin 20 illik dinamik təhlili tərəfimizdən aparılaraq onların qanunauyğunluqları müəyyən edilmişdir;
- tarif dərəcəsinin təsərrüfatların ərazi-coğrafi yerləşməsi və həcminə uyğun differensiallaşması fikri irəli sürülmüşdür;
- Azərbaycanda aqrar sığorta bazarının şaxələndirilməsi vasitəsi ilə kütləviliyin təmin edilməsi üçün indeksli sığorta modelinin tətbiqi əsaslandırılmışdır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqatda irəli sürülən elmi ideyalar dövlətin bu sahədə apardığı aqrar siyasətin nəzəri əsaslarında öz əksini tapa bilər. Tədqiqatın nəticələri əsasında irəli sürülmüş təklif və tövsiyyələr aqrar sığorta bazarının tənzimlənməsinin təkmilləşdirilməsi və bazarda kütləviliyin təmin olunması

istiqamətində praktiki əhəmiyyətə malik olmaqla yanaşı, bu istiqamətdə Aqrar Sığorta Fondunun, müştərək sığorta şirkətlərinin, yerli və beynəlxalq donorların gələcəkdə həyata keçiriləcək proqram və layihələrində istifadə oluna bilər.

**Tədqiqatın informasiya bazası**nı Azərbaycanın və xarici ölkə iqtisadçı alimlərinin aqrar sığorta bazarının tənzimlənməsinin təkmilləşdirilməsi sahəsində apardığı tədqiqatlar, ekspert qiymətləndirilməsi, elmi məqalələr və dövrü mətbuatın informasiya materialları, o cümlədən aqrar sığorta bazarı haqqında AR Prezidentinin müvafiq Fərman və Sərəncamları, Aqrar Sığorta haqqında AR Qanunu, Nazirlər Kabinetinin müvafiq qərarları, Dövlət Statistika Komitəsinin, Mərkəzi Bankın və Aqrar Sığorta Fondunun illik hesabatları və statistik məcmuələri, eləcə də müəllif tərəfindən tədqiqat kəndlərində aparılan sorğu materialları təşkil edir.

**Dissertasiya işinin nəticələrinin aprobasiyası və tətbiqi.** Dissertasiyanın məzmunu nəşr edilmiş 11 məqalə və tezisdə, o cümlədən, biri Web of Science – ESCI bazasında yerləşən jurnalda öz əksini tapmışdır. Dissertasiya işinin mövzusuna uyğun olaraq aparılan tədqiqatın nəticələri yerli və beynəlxalq elmi-nəzəri və praktiki konfranslarda təqdim edilərək müzakirə olunmuşdur.

**Dissertasiyanın ümumi həcmi.** Dissertasiya işi titul vərəqi və mündəricatı 1858 işarə, giriş 10235 işarə, I fəsil 68512, II fəsil 61981, III fəsil 73354, nəticə 6700, istifadə edilmiş ədəbiyyat siyahısı 24760, əlavələr 7592 işarə olmaqla ümumilikdə 263534 işarədən ibarətdir.

Dissertasiya işində 8 qrafik, 1 şəkil, 13 cədvəl və 4 əlavə verilmişdir. Dissertasiyanın ümumi mətn hissəsi (cədvəllər, qrafiklər, əlavələr və ədəbiyyat siyahısı istisna edilməklə) 222082 işarə təşkil edir.

MÜNDƏRİCAT

**GİRİŞ**

**I fəsil. Aqrar sığorta bazarının formalaşmasının nəzəri-metodoloji əsasları**

1.1. Aqrar sığorta münasibətlərində risklərin idarəedilməsinin nəzəri əsasları

1.2. Aqrar risklərin təsnifləşdirilməsi və qiymətləndirilməsinin metodoloji aspektləri

1.3. Aqrar sığorta bazarının yaranma şərtləri və onun dövlət tənzimlənməsi məsələləri

**II fəsil. Aqrar sığorta bazarının inkişaf səviyyəsinin və tənzimlənməsinin qiymətləndirilməsi**

2.1. Azərbaycanda tənzimlənən aqrar sığorta bazarının yaranma mərhələləri və mövcud vəziyyəti

2.2. Aqrar Sığorta Fondu tərəfindən təminata götürülən risklərin dinamik təhlili və qiymətləndirilməsi

2.3. Kənd təsərrüfatı məhsul istehsalçılarının aqrar sığorta bazarının sosioloji tədqiqatların nəticələri əsasında qiymətləndirilməsi

**III fəsil. Aqrar sığorta bazarının təkmilləşdirilməsi**

3.1. Beynəlxalq təcrübədə formalaşan aqrar sığorta modellərinin Azərbaycanda tətbiqi imkanları

3.2. Aqrar sığorta bazarının tənzimlənməsinin təkmilləşdirilməsi istiqamətləri

3.3. Aqrar sığorta şaxələndirilməsində indeksli sığorta modeli

**NƏTİCƏ**

**İstifadə edilmiş ədəbiyyat siyahısı**

## TƏDQİQAT İŞİNİN QISA MƏZMUNU

Dissertasiya işinin giriş hissəsində mövzunun aktuallığı, problemin öyrənilməsi vəziyyəti, tədqiqatın məqsəd və vəzifələri, obyekti, predmeti, elmi yeniliyi, təcrübi əhəmiyyəti və aprobasiyası şərh olunmuşdur.

Dissertasiya işinin **"Aqrar sığorta bazarının formalaşmasının nəzəri-metodoloji əsasları"** adlı I fəsli 3 yarımfəsildən ibarətdir. "Aqrar sığorta münasibətlərində risklərin idarəedilməsinin nəzəri əsasları" adlanan 1-ci yarımfəsildə iqtisadiyyatda risk amili, onun yaranmasının nəzəri əsasları, o cümlədən aqrar risk anlayışına dair elmi baxışlar şərh olunmuşdur.

Aqrar risklərin mahiyyətini anlamaq üçün ilk növbədə ümumilikdə risk anlayışının, onun yaranma səbəblərinin araşdırılmasına zərurət vardır.

Klassik məktəbin nümayəndəsi A.Smit mənfəəti faizin üzərinə əlavə olunmuş risk kimi təsvir edirdi və mənfəəti iki hissəyə ayırırdı: kapitala görə xalis faiz və risklərə görə mükafat. Klassik məktəbin digər nümayəndəsi Y.X.Tunen hesab edir ki, sahibkarın mənfəəti heç bir sığorta şirkəti tərəfindən təminata götürülməsi mümkün olmayan riskə görə mükafatdır[3].

C. Neyman və O. Morqenştern qeyri-müəyyənliyi və riski oyunlar nəzəriyyəsi prizmasından təhlil edərək belə qənaətə gəlmişlər ki, fərdlər iqtisadi davranışlarında istənilən oyunda (şahmat, futbol, tenis və s.) olduğu kimi uduşlarını maksimallaşdırmaq, uduzmaqlarını isə minimallaşdırmağa çalışırlar. Bu fikir onlar tərəfindən inkişaf etdirilərək gözlənilən fayda nəzəriyyəsinin əsasını təşkil etmişdir[3].

Risk probleminin öyrənilməsindən ümumiləşdirilmiş formada belə nəticələr çıxarda bilərik. Risk birbaşa qeyri-müəyyənliyin nəticəsidir və riskin mahiyyəti gözlənilən fayda əsasında izah olunur.

Ədəbiyyatda aqrar risklər iki ümumiləşdirilmiş hissəyə bölünür. Birinci - adi biznes riski kimi. İkinci – bu sahə üçün xarakterik olan iqlim, hava, infeksiya və xəstəliklər kimi katostrofik xarakter daşıyan təbii risklər.

---

[3] Блауг, М. Экономическая мысль в ретроспективе / М. Блауг. - Москва: Дело Лтд, - 1994. – 720 с.

“Aqrar risklərin təsnifləşdirilməsi və qiymətləndirilməsinin metodoloji aspektləri” adlı 2-ci yarımfəsildə aqrar risklərin idarə olunmasının effektivliyi üçün ilk növbədə bu risklərin mənbəyinə görə düzgün təsnifləşdirilməsinin vacibliyi vurğulanır. Elmi ədəbiyyatda aqrar risklərin mənbəyinə görə təsnifləşdirilməsində beş əsas növü müəyyən olunaraq qəbul edilmişdir: istehsal riskləri; kommersiya riskləri (qiymət və ya bazar riskləri); institusional risklər; insan amili riskləri; maliyyə riskləri[4]. Yaranma mənbəyinə görə təsnifləşdirilmiş risklər endogen və ekzogen xarakterli ola bilər.

İstehsal risklərində endogen xarakterli risklər istehsal prosesinin daxilində yaranaraq əsasən texnoloji amillərin təsirindən doğur. Ekzogen xarakterli istehsal riskləri isə üç qrupa ayrılır. 1) təbii iqlim amilləri; 2) bitkiçilik və heyvandarlıqda xüsusi təhlükəli müxtəlif növ yoluxucu xəstəliklər; 3) vəhşi heyvanların hücumu. Kommersiya risklərinin endogen xarakteri kənd təsərrüfatı məhsullarına tələbin qeyri-elastikliyi, təklifin isə uzunmüddətli dövrdə elastikliyi ilə əlaqəlidir. Bu səbəbdən də bazar qiymətlərinin dəyişməsinə tələb yox, təklifin həcmi təsir göstərir. Kommersiya riskinin endogen xarakteri bir paradoks yaradır – “məhsuldarlıq paradoksu”[5]. Paradoksun mahiyyəti ondan ibarətdir ki, yüksək məhsuldarlıq dövründə istehsalçılar mənfəət əvəzinə zərər əldə edirlər. İnstitusional risklər qeyri-iqtisadi amillərin iqtisadi proseslərə təsiri nəticəsində yaranır. Bu qrupa daxil olan risklərin mənbəyində dövlətin kənd təsərrüfatına təsir göstərən tənzimləmə siyasəti dayanır. Belə risklər ekzogen xarakter daşıyır və sığorta şirkətləri tərəfindən deyil, dövlət tərəfindən idarəolunan risklər kimi qəbul edilə bilər. İnsan amili riskinin yaranmasının kökündə müəssisənin fəaliyyəti prosesində rəhbər və işçi heyətinin davranışları dayanaraq adətən endogen xarakter daşıyır. Belə risklər müəssisənin daxilində baş verdiyinə görə özü tərəfindən idarə oluna bilir və sığorta şirkətləri tərəfindən təminata alınmır. Maliyyə riskləri - aqrar müəssisələrin maliyyə vəsaitlərinin

---

[4] Marin, L. Classification of risks in agricultural insurance // - Bucharest: Scientific Papers Series Management, Economic Engineering in Agriculture and Rural Development, - 2019. № 19(4) - p.173-178

[5] Hüseynov, M. Aqrar risklərin idarə edilməsində sığorta sisteminin nəzəri aspektləri // M. Hüseynov, E.Salahov, C.Cəfərov – Bakı: Kooperasiya elmi praktiki jurnal, - 2021. №2 (61), - s.10-19

formalaşdırılması və istifadəsi prosesində yaranan risklər qrupudur və yaranma səviyyəsindən asılı olaraq onlar endogen və ekzogen xarakterli olur.

Əhatə dairəsi meyarına əsasən aqrar risklər iki tipdə təsnifləşdirilir: sistem və idiosinkratik (qeyri-sistem). Sistem riskləri - müəyyən bir təbii iqlim ərazisində baş verən təhlükələr həmin ərazilərdə fəaliyyət göstərən təsərrüfatların hamısını və ya bir qismini əhatə edərək itkilərə məruz qoyur. İdiosinkratik risklər əsasən ayrı-ayrı fermerlərin fərdi təsərrüfatçılıqla bağlı fəaliyyətləri ilə əlaqədardır. Aqrar risklərin yaranma mənbəyi və əhatə dairəsinə görə təsnifləşdirilməsinin təhlilinə əsaslanaraq müəyyən fikirlər irəli sürə bilərik. İstehsal, kommersiya, institusional və insan amili risklərini vahid bir termində birləşdirərək belə ifadə etmək olar – aqrobiznes riskləri. Aqrar risklərin effektiv idarəolunmasının əsas prinsipi onların yaranma mənbəyinin və əhatə dairəsinin obyektiv və subyektiv xarakterindən asılıdır. Bu səbəbdən də, ölçülə bilən riskləri iki hissəyə ayırmaq olar: xalis və spekulyativ. Xalis risk obyektiv xarakter daşıyır və qarşısı alınması mümkün olmayan itkilərlə müşahidə olunan riskdir. Spekulyativ risk isə subyektiv xarakterlidir və insan davranışının nəticəsində ya uduşla, ya da itki ilə müşahidə oluna bilər. Sığorta sistemi adətən obyektiv riskləri təminata götürür.

Dissertasiya işinin I fəslinin 3-cü yarımfəsli "Aqrar sığorta bazarının yaranma şərtləri və onun dövlət tənzimlənməsi məsələləri" mövzusuna həsr olunmuşdur. Sığorta bazarının formalaşması üçün müəyyən şərtlərin yerinə yetirilməsi labüddür: sığorta məhsuluna tələb və təklifin yaranması, böyük ədədlər qanununa əməl olunması, assimmetrik informasiyanın yaratdığı əks seçim və mənəvi risklər probleminin həlli. Bu şərtlər yerinə yetirilmədikdə aqrar sığorta bazarı uğursuzluğa düçar ola bilər. Aqrar sığorta bazarının uğursuzluğunu aradan qaldırmaq üçün dövlət tərəfindən sığorta bazarının tənzimləməsinin üç əsas forması mövcuddur: 1) icbari sığortanın tətbiq edilməsi; 2) sığorta haqlarının subsidiyalaşdırılması; 3) onların kombinasiyalı tətbiqi.

Sığorta bazarının həddindən artıq tənzimlənməsinin mənfi cəhəti ondan ibarətdir ki, bazar uğursuzluğunun yaratdığı antiseleksiya və mənəvi riskləri yumşaltmaq əvəzinə, onları

şiddətləndirə bilər. Kənd təsərrüfatı məhsullarının sığortalanması zəruri olduğundan, artıq tənzimlənmə məhsul istehsalçılarında laqeydlik yaradaraq iqtisadi səmərəliliyi azalda bilər. Bu dilemmanın həlli bazarın tənzimlənməsi sərhədlərinin düzgün müəyyən olunmasından asılıdır. Bu sərhədlər isə tənzimlənən sığorta bazarlarının, o cümlədən aqrar sığorta bazarının, mövcud risklərə və ya arzuolunmayan hadisələrə qarşı tam deyil, optimal formada cavab verməsi ilə müəyyən edilməlidir.

Risklərin optimal qarşılanması – sığorta bazarının tənzimlənməsində elə bir sərhəddir ki, bu sərhədə qədər mənəvi riskləri və antiseleksiyanı stimullaşdırmadan sığortalıların kütləviliyini təmin etmək mümkündür. Əlbəttə, bu sərhədi dəqiq müəyyən etmək yalnız nəzəri cəhətdən mümkündür, praktiki olaraq isə bu sərhədlərin müəyyən edilməsində bir çox problemlər meydana çıxa bilər.

Dissertasiya işinin **"Aqrar sığorta bazarının inkişaf səviyyəsinin və tənzimlənməsinin qiymətləndirilməsi"** adlanan II fəsli 3 yarımfəsildən ibarətdir. Bu fəslin "Azərbaycanda tənzimlənən aqrar sığorta bazarının yaranma mərhələləri və mövcud vəziyyəti" adlı birinci yarımfəslində sığorta bazarının tərkib hissəsi olan aqrar sığorta bazarının formalaşması iki mərhələyə ayrılaraq təhlil olunmuşdur. Birinci mərhələ, 18 iyun 2002-ci ildə qəbul olunmuş "Kənd təsərrüfatında sığortanın stimullaşdırılması haqqında" Azərbaycan Respublikasının Qanunu ilə başlanır. İkinci mərhələ isə 27 iyun 2019-cu ildə "Aqrar sığorta haqqında" Azərbaycan Respublikası Qanununun qəbul edilməsi və Aqrar Sığorta Fondunun yaradılması ilə başlayır. Dövlət tərəfindən tənzimləmə metodu kimi sığorta haqlarının subsidiyalaşdırılması nəzərdə tutulur və sığorta haqlarının 50%-i dövlət büdcəsi vəsaiti hesabına qarşılanır[6].

2020-ci ilə qədər davam edən birinci mərhələdə kənd təsərrüfatı məhsulları – bitkiçilik və heyvandarlıq sahələri üzrə risklərdən sığorta təminatının verilməsi dövlət sığorta şirkəti ilə yanaşı, özəl şirkətlər tərəfindən də həyata keçirilirdi. Lakin aqrar sığorta bazarına özəl şirkətlərin maraq göstərməməsinin əsas səbəbi bu sahənin yüksək riskli olması və böyük ədədlər qanununun, yəni kütləviliyin təmin edilməməsi idi.

---

[6] Aqrar sığorta haqqında Azərbaycan Respublikasının Qanunu // – Bakı: - 2019

**Cədvəl 1**

**Azərbaycan Respublikasında 2016-2019-cu illərdə bitkiçilik və heyvandarlıq üzrə yığılan sığorta haqqı və sığorta ödənişlərinin ümumi sığorta bazarında payı (min manatla)**

| s/s | Göstəricilər | 2016 | | 2017 | | 2018 | | 2019 | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | Sığorta haqqı | Sığorta ödənişi | Sığorta haqqı | Sığorta ödənişi | Sığorta haqqı | Sığorta ödənişi | Sığorta haqqı | Sığorta ödənişi |
| 1 | K/t heyvanlarının sığortası | 1222,5 | 7 57,6 | 3009,1 | 95,0 | 2040,3 | 574,7 | 1438,8 | 936,7 |
| | Yekunda payı, % | 0,25 | 0,31 | 0,54 | 0,03 | 0,28 | 0,24 | 0,2 | 0,3 |
| 2 | K/t bitkiləri məhsullarının sığortası | 600,9 | 3,8 | 1325,7 | 1419,4 | 639,8 | 180,3 | 183,8 | 0 |
| | Yekunda payı,% | 0,12 | 0,001 | 0,2 | 0,55 | 0,09 | 0,07 | 0,03 | 0 |
| 3 | Cəmi: bitkiçilik və heyvandarlıq | 1823,4 | 761,4 | 4334,8 | 1514,4 | 2680,1 | 755 | 1621,8 | 936,7 |
| | Bütün sahələr üzrə yekun | 486074,3 | 237250,6 | 556866,6 | 257109,6 | 727954,2 | 240333,5 | 681176,8 | 301536,7 |

Mənbə: Azərbaycan Respublikasının Mərkəzi Bankının statistik məlumatları əsasında hesablanıb. https://www.cbar.az/page-189/insurance

Cədvəl 1-dən göründüyü kimi, 2016-cı ildə kənd təsərrüfatında yığılan ümumi sığorta haqlarında heyvandarlıq və bitkiçilik üzrə yığılan sığorta haqlarının payı müvafiq olaraq 67% və 33% təşkil etmişdir. 2019-cu ildə heyvandarlıq üzrə göstərici 88,7%, bitkiçilik üzrə isə cəmi 11,3% təşkil etmişdir. Bitkiçilik və heyvandarlıqda sığorta haqlarının yığılmasında yaranan bu disproporsiyanı iki səbəblə izah etmək olar. Birinci səbəb, heyvandarlığın bitkiçiliyə nisbətən təbii hadisələrdən daha az asılı olması və buna uyğun olaraq risk səviyyəsinin aşağı olmasıdır. İkinci səbəb isə 2009-cu ildən etibarən Azərbaycanda cins heyvanların lizinq yolu ilə güzəştli şərtlərlə fermerlərə satılmasıdır. Bildiyimiz kimi, lizinq kreditin bir formasıdır və lizinqin əsas şərtlərindən biri verilən əmlakın sığortalanmasının tələb olunmasıdır.

Daha bir maraqlı vəziyyət baş vermiş hadisələrə görə sığorta ödənişlərinin dinamikasıdır. 2016-2019-cu illər arasında sığorta ödənişlərinin yığılan sığorta haqlarının ümumi məbləğində payı illər üzrə 28,2% ilə 57,7% arasında dəyişmişdir. Buna baxmayaraq, ümumi meyl ondan ibarətdir ki, heyvandarlıq sahəsində sığorta ödənişlərinin payı artmış, bitkiçilikdə isə azalmışdır. Belə ki, 2016-cı ildə hadisələrə görə sığorta ödənişlərinin ümumi məbləği heyvandarlıqda 99,5%, bitkiçilikdə isə 0,5% olaraq paylanmışdır. 2019-cu ildə isə bitkiçilikdə bu rəqəm tamamilə sıfırlanmış, heyvandarlıqda isə kəskin artaraq 76,1%-dən 100%-ə çatmışdır. Beləliklə, aqrar sığorta bazarı ilkin mərhələdə ləng inkişaf etmiş, 2017-2019-cu illərdə isə tənəzzülə uğramışdır.

Cədvəl 2-də 2020-2022-ci illərdə bitkiçilik və heyvandarlıq sahələrində yığılan sığorta haqları və sığorta ödənişlərinin ümumi dinamikası təsvir edilmişdir. 2020-ci ildən başlayaraq bu sahədə dönüşün yaranması açıq şəkildə müşahidə olunur. Əvvəlki illə müqayisədə artım 75,8%-ə bərabər olmuşdur. Yeni modelin tətbiqindən sonra sığorta ödənişlərində də müsbət dinamika açıq şəkildə müşahidə olunur. 2022-ci ildə 2021-ci illə müqayisədə hadisələrə görə ödənişlər dəfələrlə artaraq 98,8%-ə çatmışdır.

Azərbaycanda aqrar sığorta bazarının inkişafının böyük potensialı vardır.

**Cədvəl 2**

**Azərbaycan Respublikasında 2020-2022-ci illərdə bitkiçilik və heyvandarlıq üzrə yığılan sığorta haqqı və sığorta ödənişlərinin ümumi sığorta bazarında payı (min manatla)**

| s/s | Göstəricilər | 2020 | | 2021 | | 2022 | |
|---|---|---|---|---|---|---|---|
| | | Sığorta haqqı | Sığorta ödənişi | Sığorta haqqı | Sığorta ödənişi | Sığorta haqqı | Sığorta ödənişi |
| 1 | K/t heyvanlarının sığortası | 2 842,0 | 613,0 | 6 408,0 | 574,6 | 5598,1 | 1085,4 |
| | Yekunda payı, % | 0,39 | 0,0 | 0,76 | 0,13 | 0,58 | 0,25 |
| 2 | K/t bitkiləri məhsullarının sığortası | 9,2 | 0 | 6 171,0 | 28,7 | 9209,0 | 1679,6 |
| | Yekunda payı, % | 0,001 | 0,0 | 0,73 | 0,006 | 0,95 | 0,39 |
| | Cəmi: bitkiçilik və heyvandarlıq | 2851,2 | 613 | 12579 | 603,3 | 14807,1 | 2765 |
| | Bütün sahələr üzrə yekun | 728 634,1 | 465 153,1 | 843897,3 | 458726,3 | 970822,8 | 433202,5 |

Mənbə: Azərbaycan Respublikasının Mərkəzi Bankının statistik məlumatları əsasında hesablanıb. https://www.cbar.az/page-189/insurance

Aqrar Sığorta Fondunun 2022-ci il üzrə statistik məlumatlarına əsasən, sığortalanmış əkin sahəsinin həcmi 261,223 hektar təşkil edir[7]. Nəzərə alsaq ki, ölkə üzrə kənd təsərrüfatına yararlı torpaq sahələrinin ümumi həcmi 4780,6 min hektardır, sadə hesablamalardan aydın olur ki, ölkə üzrə ümumi əkin sahəsinin yalnız 5,5%-i sığortalanıb.

Eyni vəziyyət heyvandarlıq sahəsində də açıq müşahidə olunur. Hazırda heyvandarlıqla məşğul olan təsərrüfatlarda iribuynuzlu mal-qaranın sayı 2648,8 min baş, qoyun və keçilərin sayı isə 7899,7 min başdır[8]. Sığortalanmış heyvanların ümumi sayı isə cəmisi 13102 başdır[9]. Bu isə, ümumi sığortalanan heyvanların yalnız 0,12%-ni təşkil edir.

II fəslin 2-ci yarımfəsli “Aqrar Sığorta Fondu tərəfindən təminata götürülən risklərin dinamik təhlili və qiymətləndirilməsi” adlanır. Aqrar sığorta zərfinə daxil edilən risklərin ilk sırasında dolu hadisəsi dayanır. Dolu hadisəsi sistem xarakterli risk hesab edilir və ölkənin müxtəlif regionlarında coğrafi iqlim şəraitindən və dəniz səviyyəsi yüksəkliyindən asılı olaraq baş vermiş və fərqli formalarda təkrarlanmışdır. 2009-2020-ci illərdə Respublikamızda baş vermiş dolu hadisələrinin təhlili göstərir ki, bu hadisə daha çox dağlıq və dağətəyi rayonlar üçün xarakterikdir və təkrarlanma tezliyi ilə yanaşı intensivliyi əsasən ölkənin qərb və şimal bölgələrinə təsadüf edir.

Fırtına və qasırğa kimi hadisələrin intensivliyi və baş vermə tezliyi iqtisadi regionların yerləşdiyi coğrafi ərazidən asılı olaraq fərqlənir və coğrafi baxımından əsasən dağlıq və dağətəyi ərazilərdə baş verir. Leysan yağışların baş vermə ərazilərinin təhlili göstərir ki, bu hadisə daha çox Şəki-Zaqatala və Gəncə-Daşkəsən iqtisadi rayonları üçün xarakterikdir. 2000-2019-cu illərin aylar üzrə təhlili göstərir ki, Azərbaycan iqliminə xas olaraq mart-aprel ayları, müəyyən dağlıq rayonlarda isə hətta may ayı yaz şaxtaları üçün səciyyəvidir. Yaz aylarında şaxtalı günlərin təkrarlanma tezliyinin statistik təhlilindən aydındır ki, bu hadisə dolu, fırtına, qasırğa, leysan, sel və subasmaları kimi hadisələrin baş verdiyi rayonlarda

[7] Aqrar Sığorta Fondunun xidməti istifadə üçün video materialı: [elektron resurs] / Aqrar Sığorta Fondu. – Bakı, 2023 URL: https://asf.gov.az/

[8] Azərbaycanın Kənd Təsərrüfatı. 2022. Statistik məcmuə / tər. ed. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, − Bakı: Rəsmi nəşr, −2022. − 771 s.

eyni intensivliklə müşahidə olunur. Onların yaranması arasında isə qarşılıqlı asılılıq və əlaqə mövcuddur.

Yanğın, zəlzələ və torpaq sürüşməsi iqlim hadisələri kimi deyil, fövqəladə halların nəticəsi kimi təzahür edir. Bu səbəbdən də, fermerlər belə hadisələri başqa cür qiymətləndirirlər. Onlarda belə bir fikir yarana bilər ki, fövqəladə hadisə baş verdikdə dövlət hökmən onlara yardım edəcək. Belə tip hadisələrə görə sığortalanmaya çəkilən xərcləri onlar "qaytarılmayan xərc" və ya "əlavə vergi" kimi qəbul edirlər.

İdiosinkratik risklər qrupuna daxil olan bitki və heyvan xəstəlikləri, zərərvericilər, zəhərli otlar və ya yemlərdən zəhərlənmə, kimyəvi maddələrin təsirindən zəhərlənmə, ilan və ya həşərat sancması, vəhşi heyvanların hücumu, üçüncü şəxslərin hərəkətləri və s. kimi hadisələr təsərrüfatlar tərəfindən daha çox maraq doğurur. Bu risklər idiosinkratik xarakter daşıdığına və insan amilindən birbaşa asılı olduğuna görə onların dinamikasının təhlilini aparmaq mümkün deyil. Hətta, belə bir təhlil aparmaq mümkün olsaydı onun nəticələri heç bir elmi əhəmiyyət daşıya bilməzdi. Çünki, bu hadisələrin baş verməsində insan amili iştirak etdiyinə görə heç bir qanunauyğunluq tapmaq mümkün deyil. Hər bir hadisə konkret formada yaranır və subyektiv xarakter daşıyır.

Risklərin dinamikasının təhlili nəticəsində onların baş vermə tezliyi və intensivliyi ilk növbədə öz təzahürünü sığorta hadisələrinə görə ödənişlərdə tapmışdır. Heyvandarlıqda 2022-ci ildə elə bir əhəmiyyətli dəyişiklik baş verməmişdir və ödənişlərin 95%-i yenə də südlük heyvanların payına düşmüşdür. 2022-ci ildə bitkiçilik sahəsində ümumi sığorta hadisələrinə görə ödənişlərin payında obyektiv mənşəli katastrofik xarakter daşıyan fırtına, dolu və sel-subasma kimi sistem riskləri tam üstünlüyə malikdirlər. Belə ki, fırtına hadisəsinə görə ödənişlərin payı 61%, dolu 18%, sel-subasma 15% olmaqla baş vermiş hadisələrə görə ümumi sığorta ödənişlərinin 94%-ni təşkil etmişdir[9]. Göründüyü kimi, obyektiv mənşəli katastrofik xarakter daşıyan sistem riskləri aqrar sahənin

[9] Aqrar Sığorta Fondunun xidməti istifadə ücün video materialı: [elektron resurs] / Aqrar Sığorta Fondu. – Bakı, 2023 URL: https://asf.gov.az/

səciyyəvi xüsusiyyətidir.

Bu fəslin "Kənd təsərrüfatı məhsul istehsalçılarının aqrar sığorta bazarının sosioloji tədqiqatların nəticələri əsasında qiymətləndirilməsi" adlı 3-cü yarımfəslində fermerlərin aqrar sığorta bazarına münasibəti araşdırılmışdır. Fermerlərin aqrar sığorta bazarına münasibətini və sığorta müqavilələrinin bağlanmasına meylli olub-olmadıqlarına təsir edən amilləri araşdırmaq məqsədi ilə Gəncə-Daşkəsən iqtisadi rayonunda yerləşən Samux rayonunun Sarıqamış və Ziyadlı kəndləri, Göygöl rayonunun Mollacəlilli və Şəhriyar kəndləri seçilmişdir. Anket sorğusunun əsas vəzifələri: təsərrüfatların həcmi və istiqamətlərinin müəyyənləşdirilməsi; təsərrüfatların yerləşdiyi coğrafi relyefin və iqlim şəraitindən asılı olaraq mövcud sığorta zərfinə daxil olan risklərə münasibətinin müəyyənləşdirilməsi; kənd təsərrüfatı məhsul istehsalçılarının sığorta müqavilələrinin bağlanmasına təsir edən amillər ilə sığortalanmaq istəyi arasında asılılığın araşdırılması olmuşdur. Seçmə həcmi düsturuna əsasən hər iki rayonun tədqiqat kəndlərində mövcud olan təsərrüfatların sayını (770 təsərrüfat) nəzərə alaraq sorğu aparmaq üçün ümumilikdə 137 sığortalanmayan təsərrüfat müəyyən edilmişdir. Sorğunun nəticələri SPSS proqramında emal edilmişdir. Emal nəticəsində məlum olmuşdur ki, fermerlərin risklərə münasibəti onların yerləşdiyi coğrafi ərazi ilə korrelyasiya təşkil edir. Aran zonasında yerləşən fermerlər şaxtavurma riskinə, dağlıq və dağətəyi ərazilərində yerləşən fermerlər isə dolu, fırtına və qasırğa kimi riskləri daha əhəmiyyətli hesab etmişlər. Sığorta müqaviləsinin bağlanmasına təsir edən amillərin içərisində isə belə asılılıq təsərrüfatların həcmi, sığorta şirkətlərinin aksiya və endirimləri, itkinin qiymətləndirmə prosesinin müddəti kimi amillərlə yaranmışdır. Anket sorğusu üsulu vasitəsilə əldə etdiyimiz emprik məlumatlar və onların statistik təhlili əsasında aldığımız nəticələr aqrar sığorta bazarının tənzimlənməsinin təkmilləşdirilməsi istiqamətlərinin müəyyənləşdirilməsində istifadə edilməsi nəzərdə tutulur.

Dissertasiya işinin **"Aqrar sığorta bazarının təkmilləşdirilməsi"** adlanan 3-cü fəsli də 3 yarım fəsildən ibarətdir. "Beynəlxalq təcrübədə formalaşan aqrar sığorta modellərinin

Azərbaycanda tətbiqi imkanları" adlı 1-ci yarımfəsildə beynəlxalq təcrübədə tətbiq olunan sığorta modelləri geniş tədqiq edilmişdir. Beynəlxalq təcrübə göstərir ki, tətbiq olunan sığorta modeli fərqli xüsusiyyətlərə malikdir və modelin ölkələr arasında diferensiallaşdırılması ilk növbədə həmin ölkələrdə aqrar sahənin səciyyəvi xüsusiyyətləri, coğrafi iqlim şəraiti, təsərrüfatların quruluşu, həcmi və s. amillərdən asılıdır. Aqrar sığorta bazarının tənzimlənməsi üsulundan asılı olaraq əsasən 3 modeldən istifadə olunur.

1) Dövlətin tam nəzarəti altında yaradılan sığorta modelində müxtəlif sığorta zərfləri təklif edilir və aqrar sığorta bazarında dövlət inhisarçı kimi çıxış edir. Bu modeli tətbiq edən ölkələrə Kanada, Yunanıstan, Hindistan, İran və Filippin nümunə göstərilə bilər. Modelin mənfi tərəfi isə onun yüksək dövlət xərclərini tələb etməsi və təqdim olunan xidmətlərin səviyyəsinin aşağı olmasıdır.

2) Dünyada ən geniş yayılmış dövlət-özəl tərəfdaşlığı çərçivəsində fəaliyyət göstərən modelin əsas xüsusiyyəti ondan ibarətdir ki, dövlət sığorta xidməti ilə bağlı şərtləri müəyyənləşdirir və texniki məsələləri həll etməklə yanaşı sığorta haqlarının əhəmiyyətli hissəsini subsidiyalaşdırır. Bu model ABŞ, İspaniya, Braziliya, Fransa, Türkiyə, İtaliya, Çexiya, Sloveniya, o cümlədən Azərbaycanda tətbiq edilir.

3) Tamamilə bazar prinsiplərinə əsaslanan model sığorta şirkətlərinin maraqlarından birbaşa asılıdır və ölkədə aparılan aqrar siyasətin mahiyyətindən irəli gəlir. Modelin mahiyyəti ondan ibarətdir ki, dövlət sığorta bazarında heç bir tənzimləmə siyasəti aparmır və sığorta məhsullarının qiyməti şirkətlər arasındakı rəqabətdən asılı olaraq formalaşır[10]. Modelin tətbiq olunduğu ölkələrə misal olaraq Macarıstan, Yeni Zellandiya, Argentina, Avstraliya, Niderland, İsveçrəni qeyd edə bilərik.

Bitkiçilikdə birdən çox riski əhatə edən sığorta məhsullarının zərfi mütləq üstünlük təşkil edir və dünya üzrə sığorta haqlarının 74%-nə bərabərdir. Bir riskdən (əsasən doludan) sığortalanma zərfi isə populyarlığına görə 16%-i təşkil edərək ikinci yerdədir. Digər

[10] Reyes, C.M.. Agricultural insurance program: Lessons from different country experiences // C.M. Reyes, A.D. Agbon, C.D.Mina [et al.] // PIDS Discussion Paper Series, – Quezon: - 2017. № 2017-02, - p.21-30

sahələr (heyvandarlıq, akvakultura, meşəçilik, istixanalar) isə aqrar sığorta bazarının ümumi həcminin 10%-ni əhatə edir[11].

Hazırda Azərbaycanda dövlət-özəl tərəfdaşlığı çərçivəsində fəaliyyət göstərən sığorta modeli, Türkiyənin TARSİM modeli üzərində qurulmuşdur. Türkiyə modelinin əsasında İspan modeli dayansa da, onu İspan modelindən fərqləndirən bir xüsusiyyət vardır. İspan modelində sığorta müqavilələri üç növ zərf (bir, bir neçə və bütün risklər) formasında təklif olunur və müqavilənin bağlanması, sığortalananın seçimindən asılıdır. Türkiyə modelində isə yalnız bir növ zərf təqdim olunur və bu zərf birdən çox hadisənin təminata götürülməsini nəzərdə tutur. Aqrar sığorta bazarının Türkiyə modelinin öyrənilməsində əsas məqsəd, onun zəif və güclü tərəflərini araşdırmaqdır. Belə bir araşdırma, Azərbaycanda aqrar sığorta bazarının təkmilləşdirilməsində mühüm əhəmiyyət kəsb edə bilər.

"Aqrar sığorta bazarının tənzimlənməsinin təkmilləşdirilməsi istiqamətləri" adlı 2-ci yarımfəsildə bazarın tənzimlənməsinin səmərəliliyinin artırılması məqsədilə təkmilləşdirmə istiqamətləri müəyyən edilmişdir. Azərbaycanda kənd təsərrüfatının əsas xüsusiyyətlərindən biri xırda istehsalçıların üstünlük təşkil etməsidir. Bitkiçilik sahəsində mikro və kiçik təsərrüfatların (10 ha-ya qədər torpaq sahəsinə malik olan) sayı bütün təsərrüfat kateqoriyalarına nisbətən 97,7% təşkil edir və ümumi torpaq sahəsinin 59,7%-nə malikdir. Heyvandarlıqda da xırda təsərrüfatlar tam üstünlük təşkil edir. 2022-ci ilin statistik məlumatlarına əsasən, respublikada iribuynuzlu mal-qaranın 98,2%-i, qoyun və keçilərin isə 97,7%-i fərdi sahibkarlar, ailə kəndli və ev təsərrüfatlarının payına düşür. Kənd təsərrüfatı məhsulları istehsalçılarının tərkibində mülkiyyətinə və sayına görə mikro və kiçik təsərrüfatların üstünlük təşkil etməsi, aqrar sığorta bazarının inkişafının qarşısında duran əsas maneələrdən biridir. 2021-ci ildə 10 ha-a qədər torpaq sahəsinə malik olan mikro və kiçik təsərrüfatların ümumi yığılan sığorta haqlarının payı cəmi 0,52% olmuşdur, halbuki ümumi əkinə yararlı

[11] Atlas magazine «Agriculture insurance: products and schemes». URL: https://www.atlas-mag.net/en/article/agricultural-insurance-products-and-schemes

torpaqların 59,7%-nə malikdirlər[12].

Hər bir iqtisadi regionun fərqli coğrafi iqlim şəraitində təsərrüfatçılıqla məşğul olan fermerlər sığorta müqavilələrini bağladıqda zərfə daxil olan riskləri şəxsi təcrübələrinə əsasən qiymətləndirirlər. Dağlıq və dağətəyi rayonlarda riskin səviyyəsinin yuxarı, aran ərazilərdə isə riskin səviyyəsinin aşağı olması təsərrüfatçılıqla məşğul olan fermerlər üçün sirr deyil. Fikrimizcə, tarif dərəcələrinin hər bir iqtisadi rayonun coğrafi relyefinə uyğun differensiallaşdırılması və onun əsasında xəritələşmənin hazırlanması aqrar sığorta bazarının tənzimlənməsinin təkmilləşdirilməsində ən vacib vasitələrdən biri ola bilər.

Beynəlxalq təcrübənin əsas əhəmiyyəti ondan ibarətdir ki, ənənəvi aqrar sığorta bazarında bir zərfdən deyil, üç zərfdən istifadə olunur. Sığorta zərfi bir neçə riski təminata götürməklə yanaşı, yalnız bir riski də təminata götürə bilən zərf təklif olunur. Bu o deməkdir ki, hər bir risk müstəqil şəkildə təminata götürülə bilər və riskin seçilməsində sığortalı tamamilə azaddır.

Anket sorğusu zamanı vacib asılılıqlardan biri də, sığorta şirkətlərinin endirimlər və ya aksiyalar (güzəştlər) keçirməsi ilə sığorta müqavilələrinin bağlanması arasında idi. Sığorta müqaviləsinin şərtlərinə görə hər bir istehsal olunan məhsul növünə görə fərdi müqavilə bağlanmalıdır. Bu isə müqavilələrin sayını həddindən çox şişirdərək transaksiya xərclərinin artmasına səbəb olur. Hesab edirik ki, bir təsərrüfat üçün sığorta müqavilələrinin sayı artdıqca, endirimlər edilməsi antiseleksiyanın qarşısının alınmasında əhəmiyyətli addımlardan biri ola bilər.

Kiçik təsərrüfatların sığortaya cəlb olunmasını sürətləndirən vasitələrdən biri də sığortanın kredit resurslarına çıxış imkanları ilə birləşdirilməsidir. Kiçik təsərrüfatların kredit resurslarına olan tələbi və ehtiyacı çox olduğundan sığortanın kreditə bağlanması aqrar sığorta bazarının inkişafı qarşısında bir çox maneələri aradan qaldıra bilər.

İnformasiyanın və maarifləndirmənin aşağı səviyyəsi adətən sığorta məhsuluna və sığorta şirkətlərinə inamı azaldır. İlk növbədə

[12] Aqrar Sığorta Fondunun xidməti istifadə ücün video materialı: [elektron resurs] / Aqrar Sığorta Fondu. – Bakı, 2023 URL: https://asf.gov.az/

bu kiçik fermerlərin maliyyə savadlılığının zəif olmasından irəli gəlir. Maliyyə savadlılığı zəruri qərarlar qəbul etmək üçün informasiyanı anlamaq və qiymətləndirmək qabiliyyətidir. Maliyyə ilə bağlı maariflənmə və təhsil, sığorta müqavilələrinin bağlanmasında həlledici rola malikdir. Bu problemin aradan qaldırılması istiqamətində atılacaq addımlardan biri, Aqrar Sığorta Fondunun və ya müştərək sığorta şirkətlərinin tərkibində bu sahə üzrə ixtisaslaşmış İnformasiya Agentliyinin yaradılmasıdır.

"Aqrar sığorta bazarının şaxələndirilməsində indeksli sığorta modeli" adlı 3-cü yarımfəsildə aqrar sığorta bazarının şaxələndirilməsində hava parametrlərinə əsaslanan indeksli sığorta modelinin rolu və mahiyyəti araşdırılaraq təhlil edilmişdir. Aqrar sığorta bazarının təkmilləşdirilməsinin ən mühim istiqamətlərindən biri bu bazarın şaxələndirilməsidir və indeksli sığorta modeli bu istiqamətdə mühüm rol oynaya bilər. Ölkədə tətbiq olunan sığorta modeli yalnız katastrofik və əhatə dairəsinə görə lokal xarakterli sistem risklərini təminata götürür. Homogen xarakterli və dominant məsuliyyətli risklər, ilk növbədə, quraqlıq sığorta təminatına götürülmür. Homogen xarakterli risklərə quraqlıqla bərabər, normadan artıq yağıntıları da aid etmək olar və quraqlığın əks tərəfi kimi məhsulun itkisinə gətirib çıxarır.

Bu problem suvarılmayan əkinə yararlı torpaqlarda özünü daha qabarıq şəkildə biruzə verir. 2020-ci ilin məlumatına əsasən ölkəmizdə kənd təsərrüfatında əkinə yararlı torpaq sahələrinin orta hesabla 40%-i suvarılmayan torpaqlardır. İndeksli sığorta modeli müəyyən hidrometeroloji parametrlər əsasında tətbiq edilir. Hidrometeroloji parametrlər kimi havanın hərarəti və rütubətlilik, yağıntının miqdarı, torpaqda nəmliyin miqdarı, qar örtüyünün qalınlığı və s. göstəricilərdən istifadə edilir. İndeksli sığortanın üstünlüklərinə aiddir: hadisənin nəticəsini deyil, səbəbini sığortalayır, assimmetrik informasiyanı simmetrik edir, antiseleksiya və mənəvi risk problemini həll edir, xırda və orta təsərrüfatlar üçün transaksiya xərclərini minimuma endirir, kredit resurslarına çıxış imkanlarını asanlaşdırır və investisiyanı stimullaşdırır. Bu modelin çatışmazlığı baza riskinin mövcud olmasındadır.

**Cədvəl 3**

**Aqrar sığorta modellərinin çatışmazlıqlarının müqayisəli təhlili və Azərbaycan modelinin təkmilləşdirilməsi üçün irəli sürülən təkliflər**

| № | Modellərin adı | Çatışmazlıqlar | Təkliflər |
|---|---|---|---|
| 1 | 2 | 3 | 4 |
| 1 | Dövlətin tam nəzarəti altında yaradılan sığorta modeli (Kanada, Yunanıstan, Hindistan, İran, Filippin) | ✓ Xərclərin yüksək olması<br>✓ Dövlətin tam inhisarçılığı<br>✓ Xidmətlərin səviyyəsinin aşağı olması<br>✓ Kütləvi halda məcburi xarakter daşıması | |
| 2 | Bazar prinsiplərinə əsaslanan model (Macarıstan, Yeni Zellandiya, Argentina, Avstraliya, Niderland, İsveçrə) | ✓ Dövlət aqrar sığorta bazarına müdaxilə etmir, ancaq informasiya dəstəyi göstərir<br>✓ Sığorta haqlarına görə subsidiya ödənilmir<br>✓ Sığorta bazarı kommersiya prinsipləri əsasında tənzimlənir<br>✓ Aqrar sığorta bazarının zəif inkişafı və şaxələndirilməməsi | |
| 3 | Dövlət-özəl tərəfdaşlığı çərçivəsində yaradılan model (İspaniya, Braziliya, Fransa, Türkiyə, İtaliya, Çexiya, Sloveniya, Azərbaycan) | ✓ Xırda təsərrüfatları kütləvi əhatə edə bilmir<br>✓ Mövcud risklərin hamısının sığorta zərfinə daxil edilməməsi<br>✓ Hadisənin araşdırılması, | ✓ Sığorta zərfinə daxil olan risklərin qrup formasından əlavə fermerin seçiminə uyğun daxil edilməsi<br>✓ Kiçik təsərrüfatlar üçün subsidiyanın həcminin artırılması və risklər üzrə differensiallaşdırılması |

**Cədvəl 3-ün davamı**

| 1 | 2 | 3 | 4 |
|---|---|---|---|
| | | risklərin qiymətləndirilməsi və zərərin müəyyənləşdirilməsinin ancaq ASF tərəfindən aparılması<br>✓ Tarif dərəcəsinin ancaq iqtisadi rayonlara görə differensiallaşdırılması<br>✓ Tarif dərəcələrinin müəyyən hallarda yüksək olması | ✓ Tarif dərəcələrinin iqtisadi rayon daxilində ərazi və iqlim baxımından differensiallaşdırılması<br>✓ Sığortanın subsidiyaya deyil, kredit resuslarına bağlanması<br>✓ Heyvandarlıqda franşizanın həcminin aşağı salınması<br>✓ Maarifləndirmə səviyyəsinin artırılması (xüsusilə maliyyə savadlılığı, İT bacarıqlar),<br>✓ İxtisaslaşmış İnformasiya Agentliyinin yaradılması<br>✓ Sığorta bazarının şaxələndirilməsi (indeksli sığortanın tətbiqi) |

Mənbə: Dünya təcrübəsində istifadə olunan aqrar sığorta bazarının tənzimlənməsi üsuluna əsasən müəllif tərəfindən tərtib olunub.

Baza riskinin yaranması isə təsərrüfatların məhsuldarlığı arasındakı variasiya ilə sıx əlaqədədir. Məhsuldarlıq arasında variasiya artdıqca baza risklərinin səviyyəsi də artır və əksinə. İndeksli sığorta modeli ilə bağlı tədqiqatımızın sonunda xüsusilə qeyd edək ki, bu modelin infrastrukturu, məhsulun dizaynı, uzun müddət ərzində zəruri informasiyanın toplanması və emalı, və nəhayət, tətbiqi həm elmi araşdırmalar, həm də böyük maliyyə resursları tələb edir.

## Nəticə və təkliflər

Dissertasiya işinin qarşısında qoyulan məsələlərin həlli aşağıdakı səmərəli nəticələri çıxarmağa imkan verir:

1. Aqrar sahə təbii risklərlə biznes risklərinin kombinasiyasının təsirinə məruz qalır. Risklərin belə kombinasiyalı təsiri fermerlərin itkilərinin böyük həcmi və gəlirlərinin aşağı səviyyəsi ilə nəticələnir. Kənd təsərrüfatında yaranan risklərin belə səciyyəvi xüsusiyyəti onları bir terminlə aqrobiznes riskləri adı altında birləşdirilməsi zərurəti yaradır;

2. Aqrobiznes riskləri yaranma mənbəyinə görə endogen və ekzogen xarakterli olmaqla yanaşı, sistem və idiosinkratik formada baş verə bilər;

3. Fermerlərin gəlirlərinin kəskin dalğalanmasının hamarlanmasına nail olmaq üçün aqrar sığorta bazarının tənzimlənməsinin təkmilləşdirilməsi əsasında risklərin optimal qarşılanması durmalıdır. Risklərin optimal qarşılanması vasitəsilə kütləviliyin təmin edilməsində antiseleksiya və mənəvi risklərin stimullaşdırmasına yol verilməməlidir;

4. Azərbaycanda aqrar sığorta bazarının yaranmasının birinci mərhələsi dövlətin bu bazara passiv müdaxiləsi onun uğursuzluğu ilə nəticələnmişdir. 2020-ci ildən başlayan ikinci mərhələdə dövlətin aqrar sığorta bazarına aktiv müdaxiləsi uğurlu olmasına baxmayaraq bu sahədə hələ də böyük potensiallar vardır;

5. Təminata götürülən risklərin intensivliyi və baş vermə tezliyinin dinamikası uzunmüddətli dövrdə təhlil edilərək qiymətləndirilmişdir. Risklərin ərazi-coğrafi və iqlim şəraiti baxımından yaranmasının qanunauyğunluqları aqrar sığorta bazarının tənzimlənməsinin təkmilləşdirilməsində nəzərə alınmalıdır;

6. Fermerlərin təminata götürülmüş risklərə olan münasibətinin araşdırılması məqdəsilə aparılan sorğunun mühüm nəticəsindən biri təsərrüfatların ərazi-coğrafi yerləşməsi baxımından risklərə fərqli münasibəti bildirməsi olmuşdur və aparılan siyasətdə bu halın nəzərə alınması risklərin optimal qarşılanmasında əhəmiyyəti rol oynaya bilər;

7. Anket sorğularına cəlb olunan sığortalanmayan təsərrüfatlar sığorta müqavilələrinin bağlanmasına mənfi təsir edən amillər içərisində təsərrüfatın həcmi, itkinin qiymətləndirmə müddəti və sığorta şitkətlərinin aksiya keçirməsi və endirim etməsini xüsusi vurğulamışlar. Belə anket sorğularının ölkənin müxtəlif bölgələrində keçirilməsi digər amillərin də araşdırılmasında mühim rol oynaya və sorğuların nəticələrinin nəzərə alınması sığorta bazarınının kütləviliyini təmin edə bilər;

8. Aqrar sığorta bazarının tənzimlənməsinin təkmilləşdirilməsində beynəlxalq təcrübənin əldə etdiyi nailiyyətlər və üzləşdiyi problemlərin öyrənilməsi bu istiqamətdə mühüm addımlardan biridir. Azərbaycanın aqrar sığorta modeli TARSİM modeli nümunəsində qurulduğu üçün Türkiyənin və bu modeli tətbiq edən ölkələrin təcrübəsindən müvafiq nəticələr çıxarılaraq ölkənin aqrar sığorta bazarının təkmilləşdirilməsinə müsbət təsir göstərə bilər;

9. Aqrar sığorta bazarının tənzimlənməsinin təkmilləşdirilməsində ən böyük problem ümumi kənd təsərrüfatı məhsul istehsalında kiçik təsərrüfatların mütləq üstünlük təşkil etməsidir. Təsərrüfatların həcmi sığorta müqaviləsinin bağlanmasında ən əsas maneə olduğu üçün onların sığorta bazarının aktiv iştirakçısına çevirmək üçün müxtəlif vasitələrdən istifadə edilməlidir. Bu vasitələr kimi tarif dərəcəsinin yerləşdiyi əraziyə, təsərrüfatın həcminə görə differensiallaşması və güzəştlərin tətbiqinin genişləndirilməsinə ehtiyac vardır;

10. Aqrar sığorta bazarında kütləviliyin təmin edilməsi üçün sığorta müqavilələrinin əkin sahəsinə görə verilən subsidiyalarla bağlanması sığortalanmanı dolayı yolla icbari formaya çevirir;

11. Sığorta müqavilələrinin bağlanması qarşısında duran problemlərdən biri də informasiyanın qıtlığı və maarifləndirmənin aşağı səviyyəsidir;

12. Aqrar sığorta bazarının təkmilləşdirilməsi məqsədi ilə

şaxələndirilməsi iki istiqamətdə aparıla bilər. Birinci istiqamətdə ənənəvi sığorta modeli çərçivəsində fərqli sığorta zərflərinin təqdim edilməsi ilə özünün şaxələndirilməsi. İkinci, ilk növbədə kiçik təsərrüfatlar üçün nəzərdə tutulmuş və bir çox inkişaf etməkdə olan ölkələrdə uğurla reallaşdırılan hava parametrlərinə əsaslanan indeksli sığorta modelinin tətbiqi.

Tədqiqat nəticəsində əldə edilən nəticələri nəzərə alaraq aşağıdakı təkliflər verilmişdir:

1. Müxtəlif risk şəraitində fəaliyyət göstərən fermerlərin sığorta müqavilələrinin bağlanmasına münasibətlərini stimullaşdırmaq məqsədilə tarif dərəcələri ərazi-coğrafi və iqlim şəraiti baxımdan diferensiallaşdırılmalıdır.

2. Aqrar sığorta bazarında kütləviliyin təmin edilməsi və risklərin optimal qarşılanması üçün sığorta şirkətləri tərəfindən müxtəlif güzəştlər tətbiq edilməli və aksiyalar keçirilməlidir.

3. Könüllülük prinsipini reallaşdırmaq üçün sığorta müqavilələri fermerlərin güzəştli kredit resurslarına çıxış imkanları ilə əlaqələndirilməlidir.

4. İnformasiya qıtlığının aradan qaldırılması məqsədilə müvafiq qurumların tərkibində İnformasiya Agentliyi və maarifləndirmənin sürətləndirilməsi üçün yerlərdə mobil qruplar yaradılmalıdır.

5. Aqrar sığorta bazarının inkişafı, onun təkmilləşdirilməsi və şaxələndirilməsində müxtəlif sığorta modellərindən, o cümlədən indeksli sığorta modelindən istifadə oluna bilər.

**Dissertasiya işinin mövzusu ilə bağlı müəllifin aşağıdakı məqalələri və tezisləri dərc edilmişdir:**

1. Hüseynov, M.C., Salahov, E.A., Cəfərov, C.F. Aqrar risklərin idarə edilməsində sığorta sisteminin nəzəri aspektləri // - Bakı: Kooperasiya elmi-praktiki jurnalı, - 2021. №2 (61), - s.10-18. Bakı. Kooperasiya elmi-praktiki jurnalı.

2. Huseynov, M.J., Salahov, E.A., Jafarov, J.F. Current situation, problems and diversification of insurance model in the sphere of crop production in Azerbaijan // - Bucharest: Scientific Papers Series “Management, Economic Engineering in Agriculture and Rural Development”, - 2022/ № 22 (3), – p.299-312

3. Cəfərov, C.F. Aqrar risklərin nəzəri əsasları və idarəedilməsində sığorta amili // - Gəncə: Azərbaycan Dövlət Aqrar Universitetinin elmi əsərləri, - 2023. №1, - s. 40-45.

4. Cəfərov, C.F. Aqrar sığorta sisteminin formaları və modelləri // - Gəncə: AMEA Gəncə Bölməsi, Xəbərlər məcmuəsi "İctimai və humanitar elmlər seriyası", - 2023. № 3(7), - s. 220-224.

5. Cəfərov, C.F. Müstəqillik dövründə aqrar sığorta bazarının yaranma mərhələləri // - Gəncə: İnnovasiyali iqtisadiyyat və menecment jurnali, - 2023. №1, - s. 287-292.

6. Jafarov, J.F. The development of insurance relations in azerbaijani agrarian sector and world experience // International Congress on Turkish Geography Social Sciences Research II, - Kütahya: - Türkiye, 20-22 April, - 2018, - p. 11-14

7. İbrahimov, E.R., Hüseynov, M.C., Cəfərov, C.F. Azərbaycanda kənd təsərrüfatı sığortasının mövcud vəziyyəti və inkişafı məsələləri // Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi, Azərbaycan Dövlət Aqrar Universiteti "Azərbaycanda aqrar sığortanın tətbiqi: problemlər və imkanlar" Respublika elmi-praktik konfransı. – Gəncə, Azərbaycan, - 15 mart, - 2019, - s. 3-13.

8. Cəfərov, C.F. Risk management problems in insurance companies // GDU "Müasir təbiət və iqtisad elmlərinin actual problemləri" Beynəlxalq Elmi Konfrans, - Gəncə: - Azərbaycan, 02-03 May, - 2019, - s. 124-127

9. Jafarov, J.F., Mammadov, N.N., Zabolotnyy S. Economic Evaluation and Insurance of organic agriculture production in the households of Azerbaijan and Poland // "Azərbaycanda ekoloji təmiz kənd təsərrüfatının inkişafı" Respublika elmi-praktik konfransın materialları., – Gəncə: –ADAU, –29 oktyabr –2019, –s.118-122.

10. Jafarov, J.F., A.Sh.Suleymanova. Insurance as a basis of agricultural risk management // X Международная научно-практическая конференция «Наука и образование в современном мире: вызовы XXI века» – Нур-Султан, 05-10 February- 2022, - p.85-88.

11. Cəfərov, C.F. Aqrar sığortanın qlobal konteksdə qiymətləndirilməsi // "Qeyri-neft sektoru və qlobal ərzaq təhlükəsizliyi problemləri" Respublika elmi-praktiki konfrans, - Gəncə: - Azərbaycan, 27-28 aprel, - 2023, -s. – 455-459.

Dissertasiyanın müdafiəsi 24 yanvar 2025-ci il saat $11^{00}$-da Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən ED 1.10 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ1143, Bakı ş., H.Cavid pr. 115, İqtisadiyyat İnstitutu
e-mail: economicscomaz@gmail.com

Dissertasiya ilə Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutunun kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutunun www.economics.org.az rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat "13" dekabr 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 02.12. 2024
Kağızın formatı: A5
Həcm: 37022 işarə
Tiraj: 100